# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

# HAQSIZ RƏQABƏTİN VƏZİYYƏTİNƏ DAİR

# H E S A B A T


***İcraçılar:***

*Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi* — *Rövşən Cəfərli*

*Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəis müavini* — *Afiqə Bayramova*

*Haqsız rəqabətə qarşı mübarizə idarəsinin baş mütəxəssisi* — *Elfirida Hacızadə*



**BAKI - 2025**

# Haqsız rəqabətin vəziyyətinə dair
# HESABAT

## GİRİŞ

Haqsız rəqabət – iqtisadi subyektlərin bazar payı qazanmaq məqsədilə etik və hüquqi çərçivədən kənara çıxaraq, digər subyektlərin maraqlarına və peşə normalarına zidd fəaliyyət göstərməsi kimi başa düşülür. Audit sahəsində bu anlayış daha da spesifik formalar alır və birbaşa etibar, şəffaflıq və müstəqillik prinsipinə zərbə vurur.

Auditor fəaliyyətində haqsız rəqabət və dempinq hallarının aradan qaldırılması, göstərilən auditor xidmətlərinin keyfiyyətinin artırılması, müstəqil auditə ictimai etimadın yüksəldilməsi və auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə Auditorlar Palatası 2022-ci ili "Haqsız rəqabətlə mübarizə ili" elan etməklə peşəkar ictimaiyyətimizin tələbi ilə haqsız rəqabətin aradan qaldırılması sahəsində konkret tədbirlər keçirilərək, bu sahədə Türkiyə Respublikasının qabaqcıl təcrübəsi öyrənilmiş və Auditorlar Palatasının üzvləri üçün 11 metodik vəsait təsdiq edilmiş və 1 ədəd haqsız rəqabətlə mübarizədə "Qütb Ulduzumuz" kitabçası nəşr etdirilmişdir. Bununla belə, auditor xidmətinin mövcud problemləri və auditorlar arasında hələ də tam əldə olunmayan peşə həmrəyliyi və dempinq hallarının çoxluğu, digər tərəfdən xidmətin keyfiyyətinin bir çox hallarda günün tələblərinə tam cavab verməməsi, qanunvericilikdə olan boşluqlar yaxın gələcəkdə görüləcək işlərin mühümlüyünü ortaya qoyur.

Hazırkı hesabatın məqsədi Azərbaycan Respublikasının Auditorlar Palatasında qeydə alınmış haqsız rəqabət hallarını təhlil etmək, bu halların xarakterini və yayılma meyllərini müəyyənləşdirmək, həmçinin normativ-hüquqi və institusional səviyyədə qarşısının alınması üçün effektiv tədbirlər təklif etməkdir. Hesabat müvafiq şikayətlər, araşdırmalar, statistik məlumatlara əsaslanır.

## AUDİTDƏ HAQSIZ RƏQABƏTİN FORMALARI

Audit subyektləri arasında müşahidə olunan əsas haqsız rəqabət formaları aşağıdakılardır:

***Qiymət dempinqi:*** Audit xidmətlərinin bazar dəyərindən kəskin aşağı qiymətə təklif edilməsi.

***Yalançı reklam:*** Öz xidmətlərinin real olmayan formada təqdim edilməsi və digər şirkətlərin nüfuzuna xələl gətirilməsi.

***Məlumatların qeyri-qanuni istifadəsi:*** Rəqib şirkətlərin müştəri bazası və ya kommersiya sirrlərinin qeyri-qanuni yollarla əldə olunaraq istifadə edilməsi.

***Peşə etikası pozuntuları:*** İcazəsiz fəaliyyət, sertifikatsız əməkdaşların işə cəlb olunması, müstəqillik prinsipinə zidd davranışlar.

**ŞİKAYƏTLƏRİN DİNAMİKASI VƏ STATİSTİKASININ TƏHLİLİ (2022–2025)**

Aşağıda 2022-ci ildən etibarən Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (və ya müvafiq şöbəyə) daxil olmuş şikayətlərin illər üzrə sayı və əsas istiqamətləri təqdim olunur:

| İl | Daxil olmuş şikayətlərin sayı | Əsas şikayət mövzuları |
|---|---|---|
| **2022** | **9** | 1. Tender proseslərində aşağı məbləğ təklif edilməsi<br>2. Məlumatların təhrif olunması və qeyri-şəffaf təqdim edilməsi<br>3. Eyni subyektlərlə təkrar audit müqaviləsinin bağlanması |
| **2023** | **4** | Tender proseslərində aşağı məbləğ təklif edilməsi |
| **2024** | **0** | **-** |
| **2025 ( I yarımil)** | **0** | **-** |



2022-ci ildə Auditorlar Palatasına haqsız rəqabət halları ilə bağlı ümumilikdə 9, 2023-cü ildə isə 4 şikayət daxil olmuşdur. 2024 və 2025-ci illərdə isə bu istiqamətdə hər hansı şikayətin daxil olmaması, Haqsız rəqabətə qarşı mübarizə idarəsi tərəfindən tətbiq edilən intizam tədbirlərinin önləyici təsirini və audit sahəsində normativ tələblərə riayət olunmasına nəzarətin gücləndirilməsini əks etdirir. Bu nəticələr, həmçinin Palata daxilində institusional yanaşmanın təkmilləşdirilməsi və etik standartlara əməl olunması istiqamətində görülən ardıcıl tədbirlərin müsbət nəticəsi kimi qiymətləndirilə bilər.

**2022-ci il üzrə daxil olmuş şikayətlər haqqında məlumat**

| **Məktubun nə barədə olması** | **İcra vəziyyəti barədə qeyd** |
|---|---|
| 1. “Azəri Audit Servis” MMC tərəfindən Quba şəhər bələdiyyəsi və Quba rayon Barlı bələdiyyəsi ilə sərbəst auditor Quliyev Elçin Vaqif oğlu arasında təkrarən audit aparılması üçün müqavilə bağlanması barədə şikayət məktubu barədə | Quba şəhər bələdiyyəsi və Quba rayon Barlı bələdiyyəsi ilə sərbəst auditor Quliyev Elçin Vaqif oğlu arasında **təkrarən audit** aparılması üçün müqavilə bağlanması ilə bağlı onun izahatı alınaraq bir daha belə hallara yol verilməməsi barədə xəbərdarlıq edilmişdir. |
| 2. “Grovv Audit and Consulting” MMC tərəfindən daxil olan şikayət məktubu barədə | “Grovv Audit and Consulting” MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən “İçərişəhər” Muzey Mərkəzinin audit yoxlamasının aparılması üçün elan etdiyi **tenderdə aşağı məbləğ** təklif etmiş “Caspian Consulting and Partners” MMC, “Global Audit” MMC və “Tax Audit” MMC-nin izahatları alınmış və nəticə olaraq adları qeyd edilən auditor təşkilatlarına xəbərdarlıq edilmişdir. |
| 3. “Grovv Audit and Consulting” MMC tərəfindən daxil olan şikayət məktubu barədə | “Grovv Audit and Consulting” MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən "Aqrar tətqiqatlar mərkəzi" Publik Hüquqi Şəxsinin 2021-ci il üzrə maliyyə nəticələrinin audit yoxlaması ilə bağlı elan edilmiş **tenderdə aşağı məbləğ** təklif etmiş “İnvest Finance” MMC, “Business Finance and Audit” MMC və “Azəri Audit Servis” MMC-nin izahatları alınmış və nəticə olaraq adları qeyd |

| | |
|---|---|
| | edilən auditor təşkilatlarına şifahi xəbərdarlıq edilmiş və barədə onlar məlumatlandırılmışdır. |
| 4. “Grovv Audit and Consulting” MMC tərəfindən daxil olan şikayət məktubu barədə | “Grovv Audit and Consulting” MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən "Aqrar tətqiqatlar mərkəzi" Publik Hüquqi Şəxsinin 2021-ci il üzrə maliyyə nəticələrinin audit yoxlaması ilə bağlı elan edilmiş **tenderdə aşağı məbləğ** təklif etmiş “İnvest Finance” MMC, “Business Finance and Audit” MMC və “Azəri Audit Servis” MMC-nin izahatları alınmış və nəticə olaraq adları qeyd edilən auditor təşkilatlarına şifahi xəbərdarlıq edilmiş və barədə onlar məlumatlandırılmışdır. |
| 5.“Grovv Audit and Consulting” MMC tərəfindən daxil olan şikayət məktubu barədə | “Grovv Audit and Consulting” MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən "İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin elan etdiyi **tenderdə aşağı məbləğ** təklif etmiş “Global Audit” MMC və “Tax Audit” MMC-nin izahatları alınmış və nəticə olaraq adları qeyd edilən auditor təşkilatlarına şifahi xəbərdarlıq edilmişdir. |
| 6. “Grovv Audit and Consulting” MMC tərəfindən daxil olan şikayət məktubu barədə | “Grovv Audit and Consulting” MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən "Sosial Tətqiqatlar Mərkəzi” Publik Hüquqi Şəxsinin elan etdiyi **tenderdə aşağı məbləğ** təklif etmiş “HLB Azərbaycan” MMC-nin izahatı alınmış və nəticə olaraq adları qeyd edilən auditor təşkilatına şifahi xəbərdarlıq edilmişdir. |
| 7. “Grovv Audit and Consulting” MMC tərəfindən daxil olan şikayət məktubu barədə | “Grovv Audit and Consulting” MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” Publik Hüquqi Şəxsinin elan etdiyi **tenderdə aşağı məbləğ** təklif etmiş “BAKINAR AUDİT” MMC-nin izahatı alınmış və nəticə olaraq adları qeyd edilən auditor təşkilatına şifahi xəbərdarlıq edilmişdir. |

| | |
|---|---|
| 8. “BAKINAR AUDİT” MMC tərəfindən daxil olan şikayət məktubu barədə | “BAKINAR AUDİT” MMC tərəfindən Palata ünvanlanan şikayət məktubu əsasında aparılmış araşdırmanın nəticəsi olaraq “BKR İŞIK KONSALTİNQ” MMC-nin “Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu” ASC ilə 2020 və 2021-ci illər üzrə və “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC ilə bağlanan müqavilələrin şəxsi kabinetdə qeydiyyatı aparılarkən **təsərrüfat subyektlərinin dövriyyəsi və işçilərin sayı barədə məlumatların təhrif** edildiyi aşkar edilmiş və bunun da nəticəsi olaraq “BKR İŞIK KONSALTİNQ” MMC-yə ciddi xəbərdarlıq edilmişdir. |
| 9. “Grovv Audit and Consulting” MMC tərəfindən daxil olan şikayət məktubu barədə | “Grovv Audit and Consulting” MMC tərəfindən Palata ünvanlanan şikayət məktubu əsasında aparılmış araşdırmanın nəticəsi olaraq “Azəryaşlandşaft” ASC-nin 2021-ci il üçün maliyyə hesabatlarının auditinin həyata keçirilməsi ilə bağlı elan edilmiş tenderin nəticələrinə görə “OSHAR” MMC, “Azəruçot” MMC və Əliyev Aftandil Adıgözəl oğlunun **minimum hədlərə əməl etmədikləri** müəyyən edilmiş və onlara bu barədə ciddi xəbərdarlıq edilmişdir. |

Auditor fəaliyyətində effektiv nəzarət və şəffaflıq prinsiplərinin təmin olunması məqsədilə şikayətlərin sistemli şəkildə araşdırılması və nəticəyə uyğun tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. 2022-ci ildə daxil olmuş şikayətlərin təhlili göstərir ki, audit sahəsində xüsusilə tender prosedurlarında qiymət dempinqi, eyni müştəri ilə təkrar müqavilələrin bağlanması və bəzi hallarda məlumatların təhrif edilməsi kimi hallar aktual problemlər kimi qalmaqdadır.

Nəticə etibarilə, audit fəaliyyətində şikayətlərin vaxtında araşdırılması, təhlil olunması və tədbirlərin görülməsi sahədə peşəkarlığın və ictimai etimadın yüksəldilməsi baxımından mühüm strateji vasitə hesab olunur. Bu, həm də tənzimləyici qurumun funksional səmərəliliyinin göstəricisidir və audit sektorunun davamlı inkişafı üçün vacib şərtdir.

**2023-cü il üzrə daxil olmuş şikayətlər haqqında məlumat**

| Məktubun nə barədə olması | İcra vəziyyəti barədə qeyd |
|---|---|
| 1. "Grovv Audit and Consulting" MMC tərəfindən "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti"nin 2022-ci il üzrə maliyyə hesabatlarının auditinin aparılmasına dair elan edilmiş tenderdə bir sıra auditor təşkilatlarının aşağı məbləğlər təklif etməsi ilə bağlı şikayət məktubu barədə | "Grovv Audit and Consulting" MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən aparılmış araşdırmanın nəticəsinə əsasən Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətində audit aparılarkən minimum hədlərə əməl edilib-edilməməsi ilə bağlı hesablamalar aparılması üçün müvafiq meyarların olmadığını nəzərə alaraq "Bakinar Audit" MMC, "Azəruçot" MMC, "Abacus Audit and Consulting" MMC və "L.B. Audit Xidməti" MMC barəsində hər hansı bir intizam tədbirinin görülməməsi və "Dövlət tərəfindən maliyyələşən dövlət qurumları" üzrə ayrıca meyar əsasında **minimum hədlərə əməl edilib-edilməməsi ilə bağlı** hesablamaların aparılması üçün hesablanma formasının hazırlanması və Palata Şurasında müzakirə edilməsi təklifləri 2023-cü il 20 fevral tarixində xidməti məktubla Palata rəhbərliyinə təqdim edilmişdir. Palata Şurasının 2023-cü il 14 mart tarixli 354/4 nömrəli qərarı ilə minimum hədlərə "Dövlət büdcəsindən tam maliyyələşdirilən qurumlar üzrə" bəndi əlavə edilmişdir. |
| 2. "Grovv Audit and Consulting" MMC tərəfindən "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" PHŞ-nin maliyyə hesabatlarının auditinin aparılmasına dair elan edilmiş | "Grovv Audit and Consulting" MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən aparılmış araşdırmanın nəticəsinə |

| | |
|---|---|
| tenderdə “Azəruçot” MMC-nin aşağı məbləğ təklif etməsi ilə bağlı şikayət məktubu barədə | əsasən Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin **minimum hədləri”nə əməl edilmədiyinə görə** “Azəruçot” MMC-nin rəhbərinə rəsmi xəbərdarlıq edilməsi barədə xidməti məktub 2023-cü il 06 mart tarixində Palata sədrinə təqdim edilmişdir. Palata sədrinin 2023-cü il 27 mart tarixli 13 nömrəli əmri ilə “Azəruçot” MMC-nin direktor-auditoru E.Təhməzova rəsmi xəbərdarlıq elan edilmişdir. |
| 3. “Caspian Consulting and Partners” MMC tərəfindən “Enerji Məsələlərini Tənzimləmə Agentliyi” PHŞ-nin maliyyə hesabatlarının auditinin aparılmasına dair elan edilmiş tenderdə bir sıra auditor təşkilatlarının aşağı məbləğlər təklif etmələri ilə bağlı şikayət məktubu barədə | “Caspian Consulting and Partners” MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən aparılmış araşdırmanın nəticəsinə əsasən Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin **minimum hədləri”nə əməl edilmədiyinə görə** “BKR İŞIK Konsaltinq” MMC, “L.B. Audit Xidməti” MMC, “Grovv Audit and Consulting” MMC-yə xəbərdarlıq edilməsi və “AZƏRUÇOT” MMC-yə isə daha öncə Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin **minimum hədləri”nə əməl olunmamasına görə** Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə”nin 5-ci “Xəbərdarlıq tənbehi” maddəsinin 17-ci ***“Peşə mənsubları/üzvləri tərəfindən Auditorlar Palatasının icrası məcburi olan təlimat və metodik göstərişlərinə, Palata Şurasının qərarlarına, Palata sədrinin əmr və*** |

| | |
|---|---|
| | ***sərəncamlarına əməl edilməməsi”*** bəndinə əsasən intizam tədbiri kimi rəsmi xəbərdarlıq edildiyini nəzərə alaraq, adı qeyd edilən auditor təşkilatına “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə”nin 6-cı “Töhmət tənbehi” maddəsinin 1-ci ***“Bir il ərzində xəbərdarlığın iki dəfə təkrarlanması”*** bəndinə əsasən töhmət elan edilməsi barədə xidməti məktub 2023-cü il 09 mart tarixində Palata sədrinə təqdim edilmişdir. Palata sədrinin 2023-cü il 28 mart tarixli 14 nömrəli əmri ilə “BKR İŞIK Konsaltinq” MMC, “L.B. Audit Xidməti” MMC, “Grovv Audit and Consulting” MMC-nin rəhbərlərinə rəsmi xəbərdarlıq, “Azəruçot” MMC-nin direktor-auditoru E.Təhməzova töhmət elan edilmişdir. |
| 4. “Caspian Consulting and Partners” MMC tərəfindən “İNNOVASİYALAR MƏRKƏZİ” MMC-nin maliyyə hesabatlarının auditinin aparılmasına dair elan edilmiş tenderdə “Grovv Audit and Consulting” MMC-nin aşağı məbləğ təklif etməsi ilə bağlı şikayət məktubu barədə | “Caspian Consulting and Partners” MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən aparılmış araşdırmanın nəticəsinə əsasən Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nə əməl edilmədiyinə görə “Grovv Audit and Consulting” MMC-yə daha öncə Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin **minimum hədləri”nə əməl olunmamasına görə** Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə”nin 5-ci “Xəbərdarlıq tənbehi” maddəsinin 17-ci ***“Peşə mənsubları/üzvləri tərəfindən Auditorlar Palatasının icrası*** |

| | |
|---|---|
| | ***məcburi olan təlimat və metodik göstərişlərinə, Palata Şurasının qərarlarına, Palata sədrinin əmr və sərəncamlarına əməl edilməməsi”*** bəndinə əsasən intizam tədbiri kimi rəsmi xəbərdarlıq edildiyini nəzərə alaraq, adı qeyd edilən auditor təşkilatına “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə”nin 6-cı “Töhmət tənbehi” maddəsinin 1-ci ***“Bir il ərzində xəbərdarlığın iki dəfə təkrarlanması”*** bəndinə əsasən töhmət elan edilməsi barədə xidməti məktub 2023-cü il 09 mart tarixində Palata sədrinə təqdim edilmişdir. Palata sədrinin 2023-cü il 28 mart tarixli 15 nömrəli əmri ilə “Grovv Audit and Consulting” MMC-nin direktor-auditoru O.Abdurahmanova töhmət elan edilmişdir. |
| 5. “Abacus Audit and Consulting” MMC tərəfindən “İNNOVASİYALAR MƏRKƏZİ” MMC-nin maliyyə hesabatlarının auditinin aparılmasına dair elan edilmiş tenderdə bir sıra auditor təşkilatlarının aşağı məbləğ təklif etmələri ilə bağlı şikayət məktubu barədə | “Abacus Audit and Consulting” MMC tərəfindən Palataya ünvanlanan şikayət məktubuna əsasən aparılmış araşdırmanın nəticəsinə əsasən Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin **minimum hədləri”nə əməl edilmədiyinə** görə “AZƏRUÇOT” MMC və “Grovv Audit and Consulting” MMC-yə daha öncə “İNNOVASİYALAR MƏRKƏZİ” MMC-nin maliyyə hesabatlarının auditinin aparılmasına dair elan edilmiş **tenderdə aşağı məbləğlər** təklif etmələri bağlı müvafiq intizam tədbirləri görüldüyü, adları yuxarıda qeyd edilən auditor təşkilatlarının rəhbərlərinin Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin üzvlüyündən uzaqlaşdırılmasının məqsədəmüvafiqliyi və son olaraq şikayət məktubunda qeyd edilən tenderin nəticələrinin ləğv edilməsinin Palatanın səlahiyyəti çərçivəsinə aid olmaması ilə xidməti məktub 2023-cü il 15 mart tarixində Palata sədrinə |

| | |
|---|---|
| | təqdim edilmişdir və bu istiqamətdə cavab məktubu hazırlanaraq “Abacus Audit and Consulting” MMC-yə göndərilmişdir. |

Şikayətlərin bütünlükdə tender proseslərində bəzi auditor təşkilatlarının “aşağı məbləğ” təklif etməsi ilə bağlı olmuşdur. Bu hallar, “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nə (348/1 saylı qərar) əməl olunmaması kimi qiymətləndirilmişdir. Buradan belə qənaət hasil olur ki, haqsız qiymət rəqabəti 2023-cü ildə də sektorda davam edən ciddi problemlərdən biri olaraq qalmışdır.

2024-cü il və 2025-ci ilin I yarımilliyində isə bu istiqamətdə hər hansı şikayətin daxil olmaması, Palata tərəfindən tətbiq edilən intizam tədbirlərinin önləyici təsirini və audit sahəsində normativ tələblərə riayət olunmasına nəzarətin gücləndirilməsini əks etdirir. Bu nəticələr, həmçinin Palata daxilində institusional yanaşmanın təkmilləşdirilməsi və etik standartlara əməl olunması istiqamətində görülən ardıcıl tədbirlərin müsbət nəticəsi kimi qiymətləndirilə bilər.

## İNTİZAM VƏ TƏNBEH TƏDBİRLƏRİ

***2022-ci il üzrə***

- Rəsmi xəbərdarlıq: 38 auditor təşkilatı və 22 sərbəst auditor.
- İntizam tənbehi (töhmət): 7 auditor təşkilatı və 4 sərbəst auditor.

***2023-cü il üzrə***

- Rəsmi xəbərdarlıq: 10 auditor təşkilatı və 2 sərbəst auditor.
- İntizam tənbehi (töhmət): 3 auditor təşkilatı.

***2024-cü il üzrə***

- Rəsmi xəbərdarlıq: 1auditor təşkilatı.
- İntizam tənbehi (töhmət): 2 auditor təşkilatı və 1 sərbəst auditor.
- İntizam tənbehi (peşə fəaliyyətindən müvəqqəti kənarlaşdırma): 1 auditor təşkilatı.

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.1-ci “Auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin gündəlik təhlili, təkliflərin təqdim edilməsi və müvafiq tədbirlərin görülməsi” bəndinin icrasını təmin etmək məqsədilə 2025-ci ilin 5 (yanvar, fevral, mart, aprel, may) ayı üzrə aylıq hesabatlar hazırlanaraq Palata rəhbərliyinə təqdim edilmişdir. Təqdim olunmuş hesabatlara əsasən 2025-ci ilin 5 (yanvar, fevral, mart, aprel, may) ayı ərzində “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nə 21 auditor təşkilatı və 8 sərbəst auditor tərəfindən əməl edilmədiyi müəyyən olunmuş və barələrində müvafiq qaydada intizam və tənbeh tədbirləri görülmüşdür.

***2025-ci ilin I yarımilliyi üzrə***

- Rəsmi xəbərdarlıq: 21 auditor təşkilatı və 8 sərbəst auditor.
- İntizam tənbehi (töhmət): 1 auditor təşkilatı.

## NƏTİCƏ

2022–2023-cü illərdə Auditorlar Palatasına haqsız rəqabətlə bağlı daxil olmuş şikayətlərin araşdırılması və onların nəticəsi olaraq həyata keçirilmiş intizam tədbirləri, audit sahəsində tənzimləyici mexanizmlərin tətbiqində ardıcıllığın və obyektivliyin təmin olunduğunu göstərir. Xüsusilə 2024-cü il və 2025-ci ilin I yarımilliyində bu istiqamətdə heç bir şikayətin daxil olmaması, Palata tərəfindən görülmüş ciddi tədbirlərin nəticəsi kimi qiymətləndirilə bilər. Bu istiqamətdə həyata keçirilən sistemli nəzarət və monitorinq fəaliyyəti, minimum qiymət tələblərinə əməl olunmasının izlənilməsi, etik və peşə davranışı ilə bağlı maarifləndirici tədbirlər haqsız rəqabət hallarının qarşısının alınmasında mühüm rol oynamışdır.

Nəticə etibarilə, Auditorlar Palatasının haqsız rəqabətə qarşı mübarizə sahəsində həyata keçirdiyi tədbirlər, gələcək risklərin qarşısının alınması və institusional islahatların davam etdirilməsi ilə birgə audit xidmətləri bazarının sağlam inkişafına zəmin yaradır. Bu istiqamətdə atılan ardıcıl addımlar, həm auditor peşəsinin nüfuzunun güclənməsinə, həm də auditorlarla ictimaiyyət arasında güclü etimad əlaqələrinin qurulmasına xidmət edəcəkdir.

**1.** Portalda "Auditi aparılmış təsərrüfat subyektləri" bölməsində "Təşkilati-hüquqi forma" və "Dövr" pəncərəsi aktivləşdirilməlidir;

**2.** Portalda "Şəxsi kabinet"də *"Müqavilələrin/Rəylərin qeydiyyatı"*bölməsində Palataya məxsus məxvi pəncərə (risklilik) açılmalıdır.

**3.** Auditorların "Reytinqi" işlənib portala yerləşdirilməlidir.

**4.** KİV-da "Haqsız rəqabət və dempinq halları"na yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üçün müxtəlif vidio-çarxlar hazırlanıb yerləşdirilməlidir.

**5.** Müştərilər və digər auditorlar tərəfindən haqsız rəqabət halları barədə anonim şikayətlərin verilməsi üçün rahat sistem qurulmalıdır.

Bunun üçün Palatada İctimai Nəzarət Komitəsinin və Haqsız rəqabətə qarşı mübarizə idarəsinin birgə operativ işçi qrupu ("operativ qrup" adlanacaq) yaradılmalıdır. Bildirirəm ki, Auditorlar Palatasının İctimai Nəzarət Komitəsi haqqında Əsasnamənin 2.1.1. bındinin tələbinə əsasən Komitənin əsas məqsədlərindən biri *"keyfiyyətə nəzarət, dempinq və haqsız rəqabətə qarşı mübarizə istiqamətində sərbəst auditor və auditor təşkilatlarının mövcud standartlara və qüvvədə olan qanun və qaydaların tələblərinə riayət edilməsi, həmçinin, tapşırıqları bu cür standartlara və tələblərə uyğun yerinə yetirirlməsi üzrə müşahidələrin keçirilməsi və nəticələr əsasında Palata sədrinə məlumat vermək"dən ibarətdir.*

**İlk növbədə:**

Haqsız rəqabətə qarşı mübarizədə görüləcək tədbirlər barədə "Sifarişçi"nin dərhal məlumatlı olmağı çox vacibdir. Əgər  bu proses baş verdiyi andan 15-20 gün, yaxud daha çox gecikərsə, tətbiq ediləcək cəza tədbirlərinin əhəmiyyəti dəyərsiz olacaq, əksinə Palata "zərbə" altında qalacadır.

*Haqsız rəqabət, yaxud dempinq halı yaranan zaman****"operativ qrup"****tərəfindən dərhal*

*araşdırılmalı, buna yol verən şəxslərin həmin müqaviləsi keçərsiz hesab edilməklə, müqavilənin ləğv edilməsi barədə "Sifarişçi"yə Dövlət Vergi Xidmətinin "İnternet Vergi İdarəsi" vasitəsi ilə rəsmi bildiriş göndərilməli və bu barədə dərhal portalda müvafiq qeydlər aparılmaqla həmin auditor barəsində intizam tədbirləri görülməlidir.*

Bir il ərzində iki dəfədən artıq, lakin "İcazə"nin qüvvədə olma müddətində ümumilikdə beş dəfədən artıq belə hallar aşkarlandıqda, haqsız rəqabət, yaxud dempinq halı yaradan auditor və ya auditor təşkilatları "riskli" qrupa aid edilməklə, onların apardığı auditlərin keyfiyyəti, *dempinqə məruz qalan auditor və ya auditor təşkilatının nümayəndələrinin mütləq iştirakları ilə* növbədənkənar araşdırılmalı və qiymətləndirilməlidir.

Araşdırmanın nəticəsi qeyri-qənaətbəxş hesab olunarsa, haqsız rəqabət, yaxud dempinq halı yaradan auditor və ya auditor təşkilatlarına verilmiş "İcazə"nin qüvvədə olma müddəti dayandırılmalıdır.

Əlavə olaraq peşəkar etik standartlara tam riayət edən auditor və ya auditor təşkilatları üçün mükafatlandırma sistemi ("təşəkkür elan edilməsi", sertifikatların verilməsi və s) təqdim edilə bilər.

Nəticədə "Haqsız rəqabət və dempinq halları"na yol verən "Sifarişçi" təsərrüfat subyekti ***cəriməyə,*** buna yol verənlər isə ciddi "itkilər"ə məruz qalacaqlar.

***Qeyd:*** Reallıqda bir qisim "Sifarişçi" təsərrüfat subyektləri maliyyə hesabatlarının auditinin əhəmiyyətinin nə olduğunu bilmir, yalnız qanunda icbari xarakter daşıdığı üçün müstəqil auditor axtarır, bu səbəbdən də əlavə pul sərfiyyatı etmək istəmir, ona görə ən aşağı təklifi verən auditor və ya auditor təşkilatları ilə müqavilə bağlamağa meyilli olurlar. Bu da reallıqdır ki, həmişə "taylı tayın tapır", həmin "Sifarişçi" təsərrüfat subyektləri özlərinə uyğun auditoru tapır və müqavilə bağlayırlar.

**Növbəti addım:**

2015-ci ildən müzakirələrə çıxarılmış "Auditor fəaliyyət haqqında " Qanun lahiyəsində bu və digər vacib əlavələr və düzəlişlər edilməklə, Qanunun qəbul edilməsi üçün işlər surətləndirilməlidir. Bu barədə verilmiş təkliflərin reallaşdırılması üçün, həmçinin qanunverciliyə uyğun olması üçün hesab edirəm ki, bu "ən uğurlu və mötəbər addım" olacaq!

**Nəticədə:**

- Auditorların etik qaydaları pozması halları ciddiliklə araşdırılacaq və ictimaiyyətə açıqlanacaq;
- Audit şirkətlərinə və fərdi auditorlara qarşı konkret məsuliyyət tədbirləri nəzərdə tutulacaq;
- Dempinq və haqsız rəqabətə yol verən auditorlarla dövlət və ya özəl qurumlar tərəfindən əməkdaşlıq edilməməsi təşviq olunacaq;
- Rəqabət qaydaları, etik prinsiplər, dempinqin zərərləri haqqında məlumatlandırma artırılacaq;
- Sağlam fəaliyyət göstərən auditorlar müsbət reytinqlə seçiləcək;
- Şəffaf və əlçatan bir sistem vasitəsilə dempinq və haqsız rəqabət hallarının Auditorlar Palatasına bildirilməsi təmin olunacaqdır.